UOT 376

***Günel Ədalət qızı Allahverdiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin xüsusi təhsil kafedrasının müəllimi*

# EŞİTMƏ POZULMASI OLAN UŞAQLARIN TƏSNİFATI VƏ ONLARIN TƏLİM-TƏRBİYƏ PROSESİNİN SƏCİYYƏVİLİYİ

***Гюнель Адалет гызы Аллахвердиева***
*преподаватель кафедры специального образования*
*Азербайджанского Государственного Педагогического Университета*

# КЛАССИФИКАЦИЯ ДЕТЕЙ С НАРУШЕНИЯМИ СЛУХА И СПЕЦИФИКА ИХ УЧЕБНО-ВОСПИТАТЕЛЬНОГО ПРОЦЕССА

***Gunel Adalat Allahvrediyeva***
*Teacher of Special education department of Azerbaijan State Pedagogical University*

# CLASSIFICATION OF CHILDREN WITH HEARING DISORDERS AND THE SPECIFICITY OF THEIR EDUCATIONAL PROCESS

**Xülasə**. Məqalədə eşitmə pozulması olan uşaqlar və onların təlim-tərbiyə prosesinin spesifikliyi öyrənilmişdir. Eşitmə pozulması olan uşaqların sosial mühitə adaptasiya və inteqrasiyasında təlim-tərbiyənin rolu əvəz edilməzdir. Eşitmə pozulması olan uşağın cəmiyyətdə qəbul olunmuş davranış normalarını mənimsəməsi, özünüdərk etməsi, sosial mühitə inteqrasiyası və ən əsası şəxsiyyət kimi formalaşmasında təlim-tərbiyə mühüm yer tutur. Müasir dövrdə eşitmə pozulması olan uşaqların təhsilinə xüsusi diqqət yetirilir. Eşitmə pozulması olan uşaqların təhsil müəssisələri sisteminə məktəbəqədər müəssisələr, məktəblər, xüsusi peşə müəssisələri, təlim və istehsalat müəssisələri və s. aiddir.

***Açar sözlər**: Eşitmə analizatoru, kar və zəif eşidən uşaqlar, təlim-tərbiyə prosesi, xüsusi məktəblər*

**Резюме**. В статье исследуются дети с нарушением слуха и особенности их образовательного процесса. Роль образования в адаптации и интеграции детей с нарушением слуха в социальную среду незаменима. Образование играет важную роль в развитии ребенка с нарушением слуха, принятии общественно принятых норм поведения, самосознании, интеграции в социальную среду и, самое главное, формировании личности. В наше время особое внимание уделяется обучению детей с на-рушениями слуха. В систему образовательных учреждений для детей с нарушением слуха входят дошкольные учреждения, школы, специальные профессиональные учебные заведения, учебно-производственные учреждения и др.

***Ключевые слова**: слуховой анализатор, глухие и слабослышащие дети, учебно-воспитательный процесс, специальные школы*

**Summary**. The article examines children with hearing impairments and the specifics of their educational process. The role of education in the adaptation and integration of children with hearing impairments into the social environment is irreplaceable. Education plays an important role in the development of a child with a hearing impairment, the adoption of socially accepted norms of behavior, self-awareness, integration into the social environment and, most importantly, the formation of personality. In modern times, special attention is paid to the education of children with hearing impairments. The system of educational institutions for children with hearing impairments includes preschool institutions, schools, special vocational institutions, training and production institutions, etc.

***Key words**: Hearing analyzer, deaf and hard of hearing children, educational process, special schools.*

Eşitmə pozulması duyğuların ən əhəmiyyətlisi olan eşitmə orqanının fəaliyyətinin pozulması zamanı əmələ gəlir. Eşitmə canlılara, xüsusilə insanlara məxsus olan səs hadisələri forma-

sında gerçəkliyin əks edilməsi, qavranılması, fərqləndirilməsi bacarığıdır. Eşitmə bacarığı bilavasitə eşitmə üzvü və ya eşitmə analizatoru vasitələri ilə həyata keçirilir. O, periferik və ya reseptor hissədən (xarici, orta və daxili qulaq), orta və ya ötürücü şöbədən (eşitmə siniri) və mərkəzi şöbədən (böyük yarımkürələrin gicgah payında yerləşən qabıq hissəsindən) ibarətdir.

Eşitmə pozulmalarını yaradan səbəbləri şərti olaraq 3 qrupa ayırmaq olar: anadangəlmə, qazanılma və irsi.

Eşitmənin pozulması eşitmə sümükcüklərinin anadangəlmə deformasiyası, eşitmə sinirinin inkişafsızlığı, müxtəlif kimyəvi zəhərlənmələrin, doğuş xəsarətlərinin (ağır doğuş zamanı uşağın başının əzilməsi, başdakı qan damarlarının sıxılması nəticəsində başın deformasiyası) nəticəsi kimi meydana çıxır. Bundan əlavə eşitmə müxtəlif mexaniki xəsarətlər: başın əzilməsi, zərbə alması, eləcə də, çox güclü səs qıcıqlandırıcıları – çox uca istehsalat küyləri, fit səsləri, gurultu və s. təsiri ilə də pozula bilər. Eşitmənin pozulmasına həmçinin valideynlərin alkoqolizmdən istifadə etməsi və "kesson" xəstəliyi (təyyarəçilərdə müşahidə edilən xəstəlik) səbəb ola bilər.

Ümumiyyətlə, eşitmə pozulmaları eşitmə funksiyasının pozulması və nitqin vəziyyəti ilə müəyyənləşir. Bu baxımdan eşitmə pozulmasını belə təsnif edirlər: karlıq, zəif eşitmə və sonradan karlaşma.

**Karlıq** – bu eşitmənin ən ağır pozulması olub, çox az təsadüf edilir. Elə uşaqları kar hesab edilirlər ki, onlarda eşitmə funksiyası tam inkişafdan qalmış olsun və belə uşaqlar müstəqil olaraq öz nitqini inkişaf etdirə bilməsinlər. Kar uşaqlar özləri də iki qrupa bölünürlər:

**a)** nitqi olmayan karlar (anadangəlmə karlar).

**b)** bu və ya digər dərəcədə nitq qalıqları olan karlar.

Anadangəlmə karlara hər iki eşitmə analizatorunun tam fəaliyyətdən qalması müşahidə edilən şəxslər aid edilir. Bu zaman ətraf aləmin səsləri, şifahi nitqin qavranılması qeyri- mümkün olur. Müəyyən nitq elementlərinə malik olan karlara isə nitqin erkən inkişaf dövründə (3-4 yaş) və həyatının müəyyən mərhələ-sində (nitqin formalaşması şəraitində, məktəbəqədər və məktəb yaşı dövründə) bu və ya digər səbəblərdən eşitməsi pozulmuş şəxslər aid edilirlər.

**Zəif eşidən uşaqlar** - eşitmə analizatorunun qismən pozulması nəticəsində eşitmə çatışmazlıqları olanlardır. Əgər uşaq ucalığı 20-50 dB və bir qədər də çox səsləri eşidirsə (I dərəcəli ağır eşitmə ) və əgər o yalnız ucalığı 50-70 dB və yuxarı səsləri eşidirsə (II dərəcəli ağır eşitmə) o zaman zəif eşidən hesab olunur. Belə uşaqlarda eşitmənin qalma səviyyəsindən asılı olaraq nitqin inkişafı prosesi gedir. Eşitmənin itirilməsi uşaqlarda nitqə yiyələnməni ləngidir və bu zaman eşitmə ilə nitqi təhrif olunmuş şəkildə qavrayırlar. Zəif eşidən uşaqlarda nitqin inkişaf imkanları çox olur. Bu uşaqların fərdi psixofiziki xüsusiyyətlərindən və onların təlim-tərbiyə aldığı sosial- pedaqoji şəraitdən asılıdır.

**Sonradan qazanılma karlıq** isə uşağın nitqinin formalaşmasından sonra eşitmənin pozulması nəticəsində yaranan karlığı xarakterizə edir. Sonradan karlaşma uşaq anadan olduqdan sonra, onun inkişaf mərhələsində bu və ya digər səbəblərdən: daxili qulağın eşitmə sinirinin müxtəlif xəstəlikləri, beyin sirkələnmələri, ağır kəllə-beyin xəsarətləri, keçirtdiyi yoluxucu xəstəliklər nəticəsində əmələ gəlir. Sonradan karlaşan uşaqların ən böyük problemi nitqin qavranılması və başa düşülməsidir. Buna görə də bu cür uşaqlarla pedaqoji-psixoloji iş zamanı əsas vəzifə mövcud nitq vərdişlərinin dağılmasının qarşısını almaq, onu daha da möhkəmləndirmək və ətrafdakıların nitqini dodaqdan oxumaq vərdişlərini yaratmaqdır.

Eşitmə pozulmalarının təsnifatı bir çox tədqiqatçılar: V. Fleri, N. Laqovski, N. Vasilyev, F.A. Ray, R. Boskis, S.A. Zeeman, A. Dyaçkova və başqaları tərəfindən aparılmışdır. Tədqiqatçıların gəldiyi qənaətə görə eşitmə pozulmalarının təsnifatının aparılması zamanı aşağıdakı meyarların nəzərə alınması vacibdir:

**1.** Eşitmənin itirilmə dərəcəsi; **2.** Eşitmənin itirilmə zamanı; **3.** Eşitmə pozulması olan uşaqlarda nitqin inkişaf səviyyəsi.

Bununla yanaşı, ağırlıq dərəcəsinə görə eşitmə pozulmalarının aşağıdakı səviyyələri fərqləndirilir:

1. Çox yüngül dərəcədə eşitmə pozulmaları;
2. Yüngül dərəcədə eşitmə pozulmaları;
3. Orta dərəcədə eşitmə pozulmaları;
4. Ağır dərəcədə eşitmə pozulmaları.

**Çox yüngül dərəcədə eşitmə pozulmaları.** Eşitmə pozulmalarının çox yüngül dərəcəsi 15-30 dB civarında olur. Belə pozulmaları olan uşaqlar üçün diqqətsizlik, nitqin bir qədər ləngiməsi, yüngül tələffüz pozulmaları xarakterikdir. Onlar uca danışıq səslərini dəqiq eşitdikləri halda, kar səslərin duyulmasında çətinlik çəkə bilərlər. Bu səviyyədə eşitmə pozulmaları bir o qədər də hiss edilmir.

**Yüngül dərəcədə eşitmə pozulmaları.** Yüngül dərəcədə eşitmə pozulmaları 30-50 dB olur. Bu səviyyədəki uşaqlar nitq prosesində bütün səslərin eşidilməsində çətinlik çəkirlər, səsgücləndirici vasitələrdən istifadəyə böyük ehtiyac duyurlar. Onlarda diqqətsizlik, nitq ləngiməsi, danışma və öyrənmə problemləri müşahidə olunur.

**Orta dərəcədə eşitmə pozulmaları.** Bu səviyyə 50-70 dB-ni əhatə edir. Orta dərəcədə eşitmə pozulmaları olan uşaqlarda nitq özü-özlüyündə inkişaf edə bilmir. Uşaqlarda danışma və öyrənmə problemləri müşahidə olunur. Orta dərəcədə eşitmə pozulmaları olan uşaqlar ətrafdakı yüksək səsləri, yaxın məsafədə çox yüksəkdən olan danışığı eşidə bilirlər. Bu uşaqların xüsusi təlim-tərbiyəyə prosesinə ehtiyacları olur.

**Ağır dərəcədə eşitmə pozulmaları.** Bu səviyyə eşitmə pozulmalarının 70 dB-dən yuxarı olması ilə xarakterizə edilir. Ağır dərəcədə eşitmə pozulmaları olan uşaqlarda nitqin bütün komponentlərinin inkişafdan qalması, nitqin tələffüz, leksik-qrammatik çatışmazlıqlar müşahidə olunur. Xüsusi təlim-tərbiyə, korreksiya, kompensasiya işi aparılmazsa nitqin özü-özlüyündə inkişafı qeyri-mümkündür.

Eşitmə pozulmaları olan uşaqların sosial mühitə adaptasiya və inteqrasiyasında təlim-tərbiyənin rolu əvəz edilməzdir. Eşitmə pozulması olan uşağın cəmiyyətdə qəbul olunmuş davranış normalarını mənimsəməsi, özünüdərk etməsi, sosial mühitə inteqrasiyası və ən əsası şəxsiyyət kimi formalaşmasında təlim-tərbiyə mühüm yer tutur. Qeyd edək ki, eşitmə pozulmaları olan uşaqlar üçün təlim iki qat daha çox əhəmiyyət kəsb edir. Eşitmə pozulmaları olan uşaqlar onları əhatə edən sosial mühitə ancaq normal təlim aldıqları zaman daha rahat adaptasiya ola bilirlər.

Eşitmə pozulmaları olan uşaqların təlim-tərbiyəsində təhsil müəssisələri mühüm əhəmiyyətə malikdir. Əvvəllər bu uşaqlar özləri kimi müəyyən pozulmaları olan uşaqlarla bir yerdə qalır, cəmiyyətdən təcrid olunmuş vəziyyətdə olurdular. Ancaq bu gün erkən diaqnoz və təhsil bu uşaqların cəmiyyətə çıxış imkanlarının yaranmasına, təhsilinə verilən əhəmiyyəti daha da artırır və bu istiqamətdə tədbirlər həyata keçirilir. Eşitmə pozulmaları olan uşaqların təhsilindəki ilk şərt- müvafiq eşitmə cihazı ilə təchiz edilmədir. Çünki eşitmə pozulmaları olan uşağın eşitmə baxımından xarici dünya ilə əlaqəsini tənzimləyən tək vasitə eşitmə cihazıdır. Eşitmə pozulmaları olan uşağın təlim-tərbiyəsində əsas məqsəd, uşağın mövcud eşitmə qalığını maksimum dərəcədə istifadə edə bilməsini təmin etmək və bunu ona öyrətməkdir. Yalnız səsləri eşitmək üçün eşitmə cihazından istifadə etmək kifayət deyildir. Əsas məqsəd, səsləri anlamaları və nitqlərini inkişaf etdirmələridir. Bununla yanaşı eşitmə pozulmaları olan uşaqların təlim-tərbiyəsi zamanı bir sıra strategiyalar yerinə yetirilməlidir. Bunlar aşağıdakılardır:

*Lövhədə yazılanı daha asan anlamaları üçün eşitmə pozulmaları olan uşaqlar qabaq partada otuzdurulmalıdır.

*Oxumada çətinliyi olan uşaqların məlumatı daha yaxşı mənimsəməsi məqsədilə vizual vasitələrdən istifadə edilməli. Danışarkən həmin uşağın dodaqlarınızı gördüyünə əmin olun, onlar dodaqdan oxuyaraq müzakirəyə qoşula bilirlər, üzünüz yazı lövhəsinə tərəf olduqda danışmayın.

*Arxa fondakı səslər azaldılmalıdır. Sinif elə təşkil edilməlidir ki, qrup müzakirəsi zamanı eyni anda yalnız bir şagird danışsın.

*Eşitmə pozulması olan uşaqların başa düşməsi üçün əyani vasitələrin maksimallaşdırılması üçün otağın yaxşı işıqlandırılması təmin olunmalıdır.

*Unsiyyət zamanı qeyd olunan məlu-matların yazılı şəkildə təqdim edilməsi təmin olunmalıdır. Sinif müzakirələrini və elanları əlavə etmək üçün yazılı materiallar təqdim edilməlidir.

*Sinifdə videolardan istifadə edərkən altyazıların olmasına diqqət edilməlidir.

*Eşitmə pozulmaları olan uşaqlarda nitq məhdudiyyətləri ola bilər. Anlaşılmayan sözlər, oxu tapşırıqlar müzakirə edilməlidir.

*Qeydlər apararkən uşaqlara yaşıdları ilə işləməyə icazə verilməlidir.

*Məlumat aydın və sadə şəkildə təqdim edilməli və daha aydın şəkildə tələffüz edilməlidir.

Eşitmə pozulması olan uşaqların təlim-tərbiyəsi zamanı bir sıra fəaliyyətlərdən istifadə olunur ki, bu fəaliyyətlər normal eşidən uşaqlarda olduğu kimi eşitmə pozulmaları olan uşaqların da sosial aspektdən inkişafını, dostlarının adlarını öyrənmələrini və özünəxidmət bacarıqlarını təmin edir. Bu fəaliyyətlərdən biri sərbəst fəaliyyətlərdir. Elmi tədqiqatlara əsasən eşitmə pozulması olan uşaqların ən çox aktiv olduğu fəaliyyət sərbəst fəaliyyətlərdir. Belə fəaliyyət zamanı uşaq istədiyi oyuncaq və əşyalarla oynayır. Bu minvalla uşağın bacarığı və maraqları müəyyən edilir. Bu fəaliyyət zamanı uşaqda bir çox anlayışlar (böyük-kiçik, sərt-yumşaq, dolu-boş və s.) inkişaf edir.

Digər bir fəaliyyət isə müəllim-tərbiyəçi rəhbərliyi ilə həyata keçirilən fəaliyyətdir. Bunlara musiqi fəaliyyəti, oyun və hekayələr və s. aiddir.

**Musiqi fəaliyyəti**: Bu fəaliyyətdə normal eşitmə qabiliyyəti olan uşaqlarda olduğu kimi eşitmə pozulmaları olan uşaqlarda da estetik inkişafı və eşitmə qavrayışını yaxşılaşdırmaqla yanaşı, tarazlıq və dayaq-hərəkət aparatında pozulmaların yaranmasının qarşısı alınır. Çünki eşitmə pozulmaları olan uşağın dayaq-hərəkət aparatında tarazlıq pozulmaları ola bilər.

Digər bir fəaliyyət növü isə oyunlardır. Oyun bir yaradıcılıqdır. Uşağın həyatı oyunla keçir. Hər şeyi oyun yolu ilə öyrənir. Oyun həm normal eşitmə qabiliyyətli uşağın, həm də eşitmə pozulmaları olan uşaqların inkişafına kömək edir. Eşitmə pozulmaları olan uşaq özünü oyunla ifadə edir və problemlərini ortaya qoyur. Ancaq elmi tədqiqatlar göstərir ki, eşitmə pozulmaları olan uşaqlar oyun prosesinə qoşulsalar da, lakin onlar yaradıcı oyunlar qurmaqda problem yaşayırlar.

Növbəti fəaliyyət növü isə hekayələrdir. Bu fəaliyyət uşağın ana dilinin inkişafında çox əhəmiyyətlidir. Müəllim hekayə danışarkən eşitmə pozulmaları olan uşaqları özünə yaxınlaşdırmalıdır. Onun danışmasını və şəkilləri çox yaxşı görməsini təmin etməlidir. Hekayə bitdikdən sonra uşaqların həm gözlərinə, həm də qulaqlarına təsir edən və iki- üç sözdən çox olmayan suallar verərək hekayəni başa düşüb-düşməmələri yoxlanılmalıdır. Hekayə səhnələşdirilməli və eşitmə pozulması olan uşağın nitqini inkişaf etdirmək üçün rollar verilməlidir.

Beləliklə deyə bilər ki, xüsusi məktəbin əsas vəzifələri tam hüquqlu şəxsiyyətin formalaşdırılması, eşitmə pozulmasının korreksiyası, dövlət məktəbləri tərəfindən təklif olunan təhsilin həcmi və səviyyəsinə uyğun təhsilin verilməsi, uşağın qabiliyyətinin inkişafı və əmək təliminin həyata keçirilməsidir.

**Problemin elmi yeniliyi.** Məqalədə qeyd olunan tövsiyələri nəzərə almaqla eşitmə pozulması olan uşaqların təlim- tərbiyə fəaliyyətini yüksək səviyyədə təmin etmək olar.

**Problemin praktik əhəmiyyəti.** Eşitmə pozulması olan uşaqlarla çalışan tərbiyəçilər, müəllimlər və valideynlər üçün faydalı olacağını düşünürəm.

**Problemin aktuallığı.** Eşitmə pozulması olan uşaqların təlim-tərbiyə prosesinin xüsusiyyətlərini araşdırmaq aktuallıq kəsb edir.

**Ədəbiyyat:**

1. Hüseynova, N.T. Xüsusi pedaqogika / N.T. Hüseynova, L.H. Rüstəmova. -Bakı, -2006.
2. Hüseynova, N.T, Məlikov, M.Ş. Xüsusi pedaqogikanın müasir problemləri / N.T. Hüseynova, M.Ş. Məlikov. -Bakı, -2018.
3. Hüseynova, N.T. Xüsusi psixologiya / N.T. Hüseynova, S.R. Aslanova. -Bakı, -2018.
4. Ağayeva, T.H. Eşitmə qüsurlu uşaqların psixo-korreksiyası / T.H. Ağyeva. -Bakı, -2015.
5. Aşıq Cəmiyyət İnstitutu.Yardım Fondu Uşaq inkişaf metodikası. -Bakı, -2011.

**E-mail:** allahverdi.gunel@bk.ru

**Rəyçilər:** *ped.ü.fəl.dok.dos* **N.T. Hüseynova**
*ped.ü.fəls.dok.dos.* **S.R. Aslanova**

**Redaksiyaya daxil olub:** 21.04.2021